**AZƏRBAYCAN QANUNVERİCİLİK YENİLİKLƏRİ*** **OKTYABR 2021**
**VERGİTUTMA, VƏKİLLİK**

## İQTİSADİYYATIN RƏQƏMSALLAŞDIRILMASI İLƏ ƏLAQƏDAR MƏNFƏƏTİN YENİDƏN BÖLÜŞDÜRÜLMƏSİ RAZILIĞI

İƏİT/G20 Vergi Bazasının Aşınması və Mənfəətin Köçürülməsi üzrə İnklüziv Çərçivə Proqramının 136 üzvü (https://www.oecd.org/tax/beps/oecd-g20-inclusive-framework-members-joining-statement-on-two-pillar-solution-to-address-tax-challenges-arising-from-digitalisation-october-2021.pdf) 8 oktyabr tarixində ən böyük və gəlirli müəssisələrdən vergi daxilolmalarının bir hissəsini onların satış həyata keçirdikləri ölkələrə yenidən bölüşdürülməsi planı barədə razılaşıblar.

Planın Sütun Biri gəlirləri 20 milyard Avrodan mənfəət marjası isə on faizdən artıq olan çoxmillətli müəssisələrə (MNEs) tətbiq ediləcəkdir. Bu şirkətlər üçün, onların gəlirlərinin bir hissəsi satışın həyata keçirildiyi yurisdiksiyalarda vergiyə cəlb olunacaqdır; 10 faiz mənfəət marjasından artıq olan gəlirin 25 faizi vergiyə cəlb oluna bilər.

Sütun İki, təsis qurumunun aşağı vergiyə cəlb edilmiş gəliri ilə əlaqədar ana müəssisəyə əlavə vergi tətbiq edən Gəlir Daxiletmə Qaydasından (*IIR*) və aşağı vergi tutulan təsis qurumunun gəlirinin IIR-a uyğun olaraq vergiyə cəlb olunmadığı həddə çıxılmanı qadağan edən və ya ekvivalent düzəlişlər tələb edən Aşağı Dərəcəli Vergitutmaya Ödəniş Qaydasından ibarətdir (birlikdə, Baza Aşınmasına qarşı Qlobal Qaydalar, *GloBE*). GloBE məqsədləri üçün istifadə olunan minimum vergi dərəcəsi 15 faiz təşkil edəcəkdir. *GloBE*, maddi aktiv və əmək haqqları dəyərinin beş faizi məbləğində gəlirin istisna edilməsini nəzərdə tutur.

*GloBE*, ölkələr üzrə hesabat qaydalarına uyğun olaraq müəyyən edildiyi kimi 750 milyon Avro həddinə çatan MNE-lərə tətbiq ediləcəkdir.

Planın çoxtərəfli konvensiya çərçivəsində həyata keçirilməsi gözlənilir ki, bu da tərəflərdən bütün rəqəmsal xidmətlər üzrə vergiləri və digər buna bənzər tədbirləri ləğv etməyi və gələcəkdə bu cür tədbirləri tətbiq etməməyi öhdələrinə götürməyi tələb edəcəkdir.

Azərbaycan Çərçivədə iştirak etmir: https://www.oecd.org/tax/beps/inclusive-framework-on-beps-composition.pdf. Bunun, Azərbaycanın digərlərlə yanaşı, qlobal texnoloji firmalara vergitutma üzrə birtərəfli tədbirləri həyata keçirəcəyinin göstəricisi olub-olmadığı hələ məlum deyildir.

## VƏKİLİN HÜQUQİ XİDMƏT GÖSTƏRMƏK SƏRBƏSTLİYİ

### Hüquqi Xidmət Göstərməkdən İmtinanı Qadağan Edən Hallar

Qanunvericiliyin müxtəlif müddəaları vəkillərin vəzifələrini yerinə yetirməkdən imtina etmələrini qadağan edir.

*Vəkillər və Vəkillik Fəaliyyəti haqqında* Qanunun (“**Qanun**”) 20-ci maddəsinə əsasən, “[m]addi vəziyyətinə görə öz hesabına vəkil tutmaq imkanı olmayan tutulmuş şəxsə dövlət hesabına hüquqi yardım göstərən növbətçi vəkil öz vəzifələrini yerinə yetirməkdən imtina edə bilməz.” Qanunun 16-cı maddəsi isə “peşə fəaliyyətini həyata keçirərkən vəkil[in], onun tərəfindən qəbul edilən *müdafiə öhdəçiliyindən*” imtinasını qadağan edir. Eyni ilə Cinayət Prosessual Məcəlləsinin 92.10 maddəsinə əsasən,“[m]üdafiəçiyə özbaşına müdafiədən imtina etmək və ya müdafiəçi qismində səlahiyyətlərinə xitam vermək qadağan olunur.”

Vəkildən fərqli olaraq, qanun müştəriyə təyin olunmuş vəkildən istənilən vaxt imtina etmək hüququ verir. Vəkilə müraciət etmiş şəxs müqavilə şərtləri əsasında vəkilə həvalə edilmiş tapşırığı qabaqcadan xəbərdarlıq etmədən məhdudlaşdıra və ya geri götürə bilər. Həmin şəxs, dövlət hesabına hüquqi yardım göstərən vəkildən istənilən vaxt imtina edə və özünün seçdiyi digər vəkillə müqavilə bağlaya bilər.

Yuxarıdakı hallar, yəni dövlət hesabına hüquqi yardım göstərən növbətçi vəkilin tapşırıqdan (təlimat, müdafiə öhdəçiliyindən), habelə cinayət prosesində təlimatı qəbul etmiş vəkilin müdafiəçi qismindən imtinaların qadağan edilməsi, xaricində vəkillər istənilən təlimatı qəbul etməmək və qəbul etdikləri təlimata xitam vermək hüququna malikdir.

**Müqavilə Sərbəstliyi**

Qanunun 5-ci maddəsinə əsasən, "[v]əkillik fəaliyyəti, ... onlarla hüquqi yardım üçün müraciət edənlər arasında olan münasibətlərin könüllülüyü əsasında və vəkil etikasına riayət edilməklə həyata keçirilir.... Vəkilin ədalət mühakiməsində iştirakı yalnız hüquqi yardım üçün müraciət edən şəxslə ... vəkil və ya ...vəkilin daxil olduğu qurum arasında bağlanmış müqavilə əsasında həyata keçirilir." Tərəflər müqavilə bağlamaqda sərbəst olduğu qədər bağlanmış müqaviləyə xitam vermək şərtlərini müəyyən etməkdə sərbəstdir.

**Vəkilin Hüquqi Xidmətdən Əsaslı İmtina Hüququ**

Cinayət Prosessual Məcəlləsinin 114.1-ci maddəsi müdafiəçiyə, həmçinin zərər çəkmiş şəxsin (xüsusi ittihamçının), mülki iddiaçının, mülki cavabdehin və ya şahidin nümayəndəsinə əsaslı etiraz əsasında vəkilin cinayət prosesində iştirakına son qoyula bilər ki, bu hallara maraqların toqquşması və müvafiq hüquqların olmaması daxildir.

*Vəkillərin Davranış Qaydaları haqqında* Əsasnamənin 3.9-cu bəndinə görə, vəkil, təmsil edilənin mənafeyinə zidd olan şəxslərə həmin iş üzrə hüquqi yardım göstərirsə və ya əvvəllər belə yardım göstərmişsə, o, həmin işin icrasından imtina etməlidir. Vəkillər Kollegiyası Rəyasət Heyətinin 23 aprel 2018-ci il tarixli qərarı ilə təsdiq edilmiş Hüquqi Yardımın Göstərilməsi haqqında Müqavilənin (https://barassociation.az/uploads/attachments/huquqi_yardimin_gosterilmesi_haqqinda_muqavile.docx) 2.1-ci bəndində nəzərdə tutulan haqq ödənilməyənə qədər vəkil tapşırığın icrasına başlamaya və, icrasına başlamışsa, icranı dayandıra bilər.

**Vəkillərin İmtina Hüququ ilə Bağlı Qanunun Qismən Çevikliyi: Fransa**

Fransada, Mülki Prosessual Məcəllənin 419-cu maddəsinə əsasən, nümayəndə/vəkilin öz vəzifələrini yerinə yetirməkdən imtina etmək üçün müştərisinə, hakimə, və digər tərəfə öz niyyəti barədə məlumat verməsi kifayətdir.

Vəkilin nümayəndəliyi məcburi olduqda, vəkili müştəri və ya əks halda Vəkillər Kollegiyasının sədri və ya İntizam Palatasının təyin etdiyi başqa bir vəkil əvəz etdiyi gündən, o öz vəzifələrini yerinə yetirməkdən imtina etmiş sayılır. Müştəriyə artıq müdaxilə etməmək niyyəti barədə məlumat verən sifarişli poçt məktubu göndərildiktən sonra, başqa bir vəkil təyin edilən kimi, nümayəndəliyə xitam verilir. Əks halda, vəkil öz vəzifələrini yerinə yetirməkdən imtina edə bilməz – paradoks kimi görünən vəziyyət məcburi nümayəndəliyə ehtiyac ilə izah olunur.

Fransanın Ali Məhkəməsi tərəfindən 15 fevral 2005-ci il tarixində qəbul edilmiş qərarda deyilir ki, vəzifələrə birmənalı xitam verilməsinə qədər, vəkil öz peşə öhdəliklərini icra etməlidir.

**Vəkillərin Hüquqi Xidmət Göstərməkdən Tənzimlənən İmtinası: Böyük Britaniya**

Məhkəmə hüquqşünası (advokat) olmayan hüquqşünasların (*solicitor*) tənzimləmə orqanı, SRA-nın 2011-ci ilin Davranış Məcəlləsinə əsasən, vəkil müştərisi üçün üzrsüz səbəbdən və əsaslı bildiriş olmadan fəaliyyətini

dayandırmaq hüququna malik deyil.  Bu qayda, 2011-ci ilin SRA Davranış Məcəlləsini əvəz edən və peşəkar davranış standartlarına daha çox çeviklik qazandıran SRA Standartları və Qaydalarında əks olunmadığına baxmayaraq, hələ də digər hüquqi mənbələr və məhkəmə presedent hüququ ilə istinad edilir. Bir qayda olaraq, yetərsiz səlahiyyət və maraqların toqquşması, habelə müştəri ilə müqavilədə sadalanmış hallarında, solicitor nümayəndəlikdən imtina edə bilər.

Solicitorların müştəriləri ilə müqavilə bağlamaq seçimi sərbəstdir.

Məhkəmə hüquqşünasları, *barrister*lərə, gəldikdə, onlar istənilən təlimatı qəbul etməməkdə (müştəridən imtina etməkdə) tamamilə azad deyil – bunlar Davranış Məcəlləsində nəzərdə tutulmuş hallarda və əsaslarla mümkündür.  Eyni zamanda, vəkil təlimatı qəbul etdikdən sonra işdən geri çəkilmək istəsə, çəkilmə Məcəllədə belə hallar üçün nəzərdə tutulmuş tələblərə istinad etməlidir.  Bu tələblərə, başqa hallarla yanaşı, müştərinin, vəkilin məhkəməyə olan vəzifəsinin ondan tələb etdiyini məhkəməyə açıqlama verməsinə icazə verməkdən imtinası, vəkilin peşəkar davranışı sual altına alınması, və maraqların toqquşması daxildir.

**İSTƏNİLƏN SUAL VƏ ƏLAVƏ MƏLUMAT ÜÇÜN BİZİMLƏ ƏLAQƏ SAXLAYIN:**

**BM Morrison Partners**
**Tel: (994 12) 497 19 14; 497 19 15**
**Faks: (994 12) 497 19 13**
**E-mail: info@bmlawaz.com**

©2021 BM Morrison Partners.  Bütün hüquqlar qorunur.

* Nəşrimizdə olan məlumat hüquqi və ya digər peşəkar məsləhət təşkil etmir.